**“Xalqkart Cashback” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında**
**Müqavilənin 5 №-li Əlavəsinə dəyişikliklər**

Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə Cashback məbləğinin aylıq limitinin müəyyən olunması ilə əlaqədar olaraq:

1. “Xalqkart Cashback” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında Müqavilənin 5 №-li Əlavəsinin 1.4-cü bəndinin birinci cümləsi, 1.5.2-ci yarımbəndi və 1.6-cı bəndin birinci və ikinci abzasları müvafiq olaraq aşağıdakı redaksiyalarda verilsin:

- **«1.4.** Cashback hesablanması zamanı Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən olunmuş Cashback məbləğinin aylıq limitlərinə riayət olunmaqla, cari Hesabat dövründə XKH-da əks olunmuş Nağdsız əməliyyatlar, yəni XKH-dan faktiki silinmiş pul vəsaitlərinin məbləği nəzərə alınır.»**;**
- **«1.5.2.** Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində - Kartdan istifadə etməklə aparılan hər Nağdsız əməliyyat məbləğinin 2 (iki) faizi miqdarında, lakin hər bir halda eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə aylıq 30 (otuz) AZN və ya 15 (on beş) USD/EUR/GBP məbləğindən (bundan sonra – aylıq limit) çox olmamaq şərtilə.»**;**
- **«1.6.** Bank tərəfindən Kart saxlayıcısının XKH-sına köçürülən Cashback məbləği Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən edilmiş aylıq limit nəzərə alınmaqla, bu Əlavənin 1.5-ci bəndində nəzərdə tutulmuş müvafiq Mükafatlandırma dərəcəsinin Hesabat dövrü ərzində aparılmış və Bank tərəfindən bu Əlavənin 1.4-cü bəndinə müvafiq olaraq müəyyən edilmiş Nağdsız əməliyyatların ümumi məbləğinə vurulması nəticəsində hesablanır. Hesablamanın nəticəsi vergüldən sonra ikinci rəqəmə qədər yuvarlaqlaşdırılır.

Bu zaman bir Hesabat dövrü üzrə Kart saxlayıcısının XKH-sına köçürülə biləcək Cashback-in: (i) minimal məbləği həmin XKH-nın valyutasından asılı olaraq 3 (üç) AZN və ya 2 (iki) USD/EUR/GBP; (ii) maksimal məbləği isə Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlara münasibətdə müəyyən edilmiş aylıq limitdən çox olmamaq şərtilə, həmin XKH- nın valyutasından asılı olaraq 300 (üç yüz) AZN və ya 150 (yüz əlli) USD/EUR/GBP təşkil edir.»**.**

2. Bu dəyişikliklər 05.12.2023-cü il tarixindən etibarən qüvvəyə minir.